Bəşirova Aynur Hilal qızı[116]

TABELİ MÜRƏKKƏB CÜMLƏ STRUKTURUNDA KOMPONENTLƏRİN YERDƏYİŞMƏSİ

İstər ingilis dilində, istərsə də Azərbaycan dilində tabesiz mürəkkəb cümlələrin (Azərbaycan dilində bəzi məna əlaqələri növü istisna olmaqla; səbəb-nəticə, qoşulma, ardıcıl zamanlı sadalama əlaqəsi və s.) komponentləri asanlıqla yerlərini dəyişə bilir. Tədqiqatçılara görə, müasir ingilis dilində mürəkkəb cümlə komponentlərinin yerdəyişməsi tərkib hissələrdəki predikativ mərkəzlərin (və onlardan sintaktik asılılığı olan elementlərin), bütünlüklə (yaxud bir hissənin) struktur eyniliyi yerdəyişməyə səbəb olur. John asked and Mary answered some questions from the quiz book (3, s.233) (Con soruşur, Meri isə sual kitabından bir neçə suala cavab verir). Sintaktik strukturu eyni olan komponentlər Azərbaycan dili cümlələrində də asanlıqla yerdəyişməyə məruz qala bilir. İngilis dilinə aid cümlə nümunələrində hər iki tərkib hissə üçün ortaq element - söz önlüklü tamamlıq artikl və təyin ilə birlikdə (some questions, from the book) dəyişməz qalır. Ortaq elementlər cümlənin hər hansı qütbündə işləndikdə komponentlərin ümumi cümlə strukturu ilə əlaqəsi ortaq elemetlər vasitəsilə reallaşır (yaxud güclənir). Odur ki, cümlənin həmin hissəsi dəyişməz qaldığından hər iki tərəf növbə ilə ona yaxınlaşa bilir və yerlərini dəyişirlər:

İngilis dilində:

John asked and Mary answered
Mary answered and John asked
> some questions from the quiz book

Azərbaycan dilində:

Yalnız burada
> hisslər çulğalaşır, fikirlər çarpazlaşırdı (1, s.327)
> fikirlər çarpazlaşır, hisslər çulğalaşır (ədat, yer zərfliyi və idi bağlaması ortaq element rolunu oynayır)

Tərkiblərin sintaktik strukturu eyni olmadıqda onlar yerlərini dəyişməyə bilir. There is a book on the table and I am going to read it (4, s.141) (Kitab stolun üstündədir və mən onu oxumağa gedirəm) cümləsini komponentlərin əksinə yerdəyişməsi ilə (I am going to read it and there is a book on the table) işlətmək mümkün deyil. Tabeli mürəkkəb cümlələrdə komponentlərin yerdəyişməsi bəzən mümkün olduğu halda, bəzi cümlələrdə bəzən reallaşa bilmir. Y.A.Levitskiy yazır ki, tabesiz mürəkkəb cümlələr də tabeli mürəkkəb cümlələr kimi komponentləri yerlərini dəyişən və komponentləri yerlərini dəyişməyən olurlar. Tərkib hissələrin yerdəyişməməsi tabesiz mürəkkəb cümlələrdən fərqli olaraq, semantik deyil, formal faktorlarla bağlıdır. Komponentləri dəyişən tabeli mürəkkəb cümlələr bu cür tabesiz mürəkkəb cümlələrdən onunla fərqlənir ki, tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrin yerdəyişməsi bağlayıcıya münasibətdə, tabeli mürəkkəb cümlələrdə isə yerdəyişmə bağlayıcı ilə birlikdə baş cümləyə münasibətdə baş verir. Tabesiz mürəkkəb cümlə: Peter read and Mary wrote - Mary wrote and Peter read. Tabeli mürəkkəb cümlə: Peter will ring you up when he comes - When he comes, Peter will ring you up (4, s.144) (O gələndə Piter zəng vuracaq).

Gördüyümüz kimi, tabesiz mürəkkəb cümlə vahidində tərkib hissələrin yerdəyişməsi zamanı sabit qalan element onları əlaqələndirən and ("və") bağlayıcısıdır. Eyni hal Azərbaycan dili cümlələri üçün də xarakterikdir: Hər şey dəyişdi, lakin ana ürəyinin bir arzusu dəyişmədi - Ana ürəyinin bir arzusu dəyişmədi, lakin hər şey dəyişdi. (1, s.310) Tabeli mürəkkəb cümlələrdə isə bağlayıcı baş cümlənin tərkibində, bağlayıcı söz isə budaq cümlə ilə birlikdə işləndiyindən tərkib hissələrin yerdəyişməsi baş vermir. Hər kəs mənə mərhəmət eləmək fikrinə düşsə, o mənim gözümdə özünü yamanca alçalda bilər - O mənim gözümdə özünü yamanca alçalda bilər, hər kəs mənə mərhəmət eləmək fikrinə düşsə. (1, s.337) Məlum məsələdir ki, ağaclar gecələr yatmır - Ağaclar gecələr yatmır, məlum məsələdir ki. (2, s.4) Komponentlər yerlərini dəyişsə belə, cümlə quruluşu parçalanır, əvvəlki tabeli mürəkkəb cümlədən əsər-əlamat qalmır (Ağaclar gecələr yatmır. Məlum məsələdir ki...).

Y.A.Levitskiy qeyd edir ki, mürəkkəb cümlədə komponentlərin sırasının dəyişməsi kommunikativ məqsəddən asılıdır. (4, s.138) When the day came for Jennie's departure she had to go without saying farewell to her father (7, s.108) (Ceninin gediş günü gələndə atası ilə sağollaşmadan getməli oldu) cümləsi budaq cümlə komponentinin əvvəl işləndiyi tabeli mürəkkəb cümlədir. Məzmuna heç bir xələl gətirmədən budaq və baş cümlə komponentlərinin yerini dəyişmək olar: She had to go without saying farewell to her father when the day came for Jennie's departure. Tərkib hissələrdən birinin əvvəl işlənməsi baş və budaq cümlənin məzmununu önə çıxarır və onu ümumi kommunikativ məqsədə bağlayır. Verilmiş nümunədə iki informasiya qabarıq nəzərə çarpır: Ceninin getməsi və Ceninin atası ilə xudahafizləşməməsi. Ümumi kommunikativ planda hansı informativliyə yer (ya üstünlük) verilirsə, onun ifadəçisi olan komponent cümlə strukturunda əvvələ keçir.

İstər Azərbaycan, istərsə də ingilis dilərində tabeli mürəkkəb cümlənin komponentləri müəyyən ardıcıllıqla sadalanır. Prof. Ə.Abdullayev yazır: "Baş cümlənin yeri tabeli mürəkkəb cümlənin quruluş tiplərini nəzərə aldıqda müəyyən olur. O, nisbi əvəzliklərlə düzələn hallarda budaq cümlədən sonra, bağlayıcılı tabeli mürəkkəb cümlələrdə ən çox budaq cümlədən qabaq, bəzi hallarda ondan sonra, şərt şəkli ilə qurulan mürəkkəb cümlələrdə isə budaq

[116] *Gəncə Dövlət Universiteti*
e-mail: bashirova.aynur@bk.ru

cümlədən sonra işlədilir. (1, s.329) İngilis dilində isə komponentlərin sıralanma ardıcıllığı ayrı-ayrı budaq cümlə növlərində fərqlidir. E.E.İzrailoviç və K.N.Kaçalovaya görə, mübtəda budaq cümləsinin yeri baş cümlədə it ("o/bu") işarə əvəzliyindən sonra gələn xəbərin yanındadır. Başqa sözlə, baş cümlə komponenti daha çox budaq cümlədən əvvəl işlənir: It is strange that he has made a mistake (Qəribədir ki, o səhv edib). Baş cümlə budaq cümlədən sonra da işlənir: That he has made a mistake is strange (5, s.414) (Qəribədir ki, o səhv edib) xəbər budaq cümləsinin yeri sabitdir, əsasən baş cümlə hissəsindən sonra gəlir: That is what I do (6, s.397) (Budur mən etdiyim/ Mən etdiyim budur).

Qalan budaq cümlə növlərində budaq cümlə komponenti hər iki mövqedə - baş cümlədən əvvəl və baş cümlədən sonra işlənə bilir.

Tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə. We soon discovered that we were the sail survivors of the accident (8, s.61) (Biz tezliklə bildik ki, biz hadisədən yeganə sağ qalanlarıq). Baş cümlə budaq cümlədən əvvəl işlənir. Why I did so I can hardly tell (8, s.64) (Niyə belə etdiyimi demək mənə çətindir). Baş cümlə budaq cümlədən sonra işlənir.

Zaman budaq cümləli tabeli mürəkkəb cümlə. I had scarcely completed my work, when a footstep in the hole forced me to make use of it (8, s.64) (Çökəkdəki ayaq səsi məni bundan istifadə etməyə məcbur edəndə, işimi yenicə bitirmişdim). Budaq cümlə baş cümlədən sonra işlənir. When I look around me I feel a shame of my former apprehensions (8, s.64) (Ətrafıma baxan zaman əvvəlki günahlarımdan utanıram). Budaq cümlə baş cümlədən əvvəl işlənir.

Şərt budaq cümləli tabeli mürəkkəb cümlə. If she don't begin now she never will know them (7, s.112) (Əgər o, indi başlamazsa, o heç vaxt onları tanımayacaq). Şərt budaq cümləsi baş cümlədən əvvəldə yerləşir. We will see if we cannot find its nest (7, s.112) (Əgər biz onun yuvasını tapa bilməsək, biz görəcəyik). Şərt budaq cümləsi baş cümlədən sonra işlənir.

Müasir Azərbaycan dilində yer, kəmiyyət, qarşılaşdırma (hər üç budaq cümlə növündə budaq cümlə baş cümlədən əvvəl işlənir), nəticə, dərəcə, qoşulma (hər üç budaq cümlə növündə budaq cümlə baş cümlədən sonra gəlir) budaq cümləli tabeli mürəkkəb cümlələr istisna olmaqla, tabeli mürəkkəb cümlələrin iki tipi mövcuddur; budaq cümlə əvvəl və budaq cümlə sonra işlənir. Ancaq "üslubi tələblərdən asılı olaraq, adi qrammatik vəziyyətlər dayişə bilər: baş cümlə budaq cümlə ilə yerlərini dəyişər, yaxud biri digərinin arasında işlədilər". (1, s.329) İngilis dilində də bəzi budaq cümlə növlərində baş cümləyə nisbətən budaq cümlənin yerdəyişməsi üslubi məqsəddən asılı olur. L.S.Barxudarov və D.A.Şteinq yazırlar ki, ingilis dilində tamamlıq budaq cümləsinin yeri sadə cümlədəki tamamlığın yeri ilə eynidir, yəni feldən sonra işlənir. Bəzən tamamlıq budaq cümləsinin əvvəldə (mübtədadan qabaq) işlənməsinə də təsadüf edilir. Bu halda budaq cümlə ancaq fikrin çıxış nöqtəsini (nə barədə isə məlumatın verilməsi) ifadə edir. What I suffered for that placard nobody can imagine (6, s.397) (O plakarta görə nə/ necə əziyyət çəkmişəm, heç kəs təsəvvür edə bilməz). Yaxud eyni budaq cümlə növündən olan iki cümləyə diqqət yetirək. If she don't begin now she never will know them (7, s.112) (Əgər o, indi başlamazsa, o heç vaxt onları tanımayacaq). We will see if we cannot find its nest (7, s.112) (Əgər biz onun yuvasını tapa bilməsək, biz görəcəyik). Hər iki cümlə şərt budaq cümləli tabeli mürəkkəb cümlədir. Fərq ondadır ki, birinci cümlədə şərtlə bağlı informasiya (baş cümlədəki iş, hərəkətin bağlı olduğu şərt) əvvəl gəldiyindən qabarıq şəkildə nəzərə çarpır.

Məlum olduğu kimi ingilis dilinə məxsus bəzi budaq cümlə növlərində Azərbaycan dilindən fərqli olaraq, baş və budaq cümlə komponentləri asanlıqla yerlərini dəyişir. I'll tell you when I come back Lester -When I come back Lester I'll tell you (Lesterə geri dönəndə sənə deyəcəyəm) (7, s.120). He choked a little as he muttered - As he muttered he choked a little (O mırıldananda azca boğuldu). (7, s.121). Verilmiş zaman budaq cümləli tabeli mürəkkəb cümlələrdə budaq cümlə komponenti baş cümlə komponentindən əvvələ keçir. Komponentlərin sıralanma ardıcıllığı istisna olmaqla, tabeli mürəkkəb cümlə vahidində heç bir dəyişiklik baş vermir; cümlənin quruluş növü, məzmun olduğu kimi qalır. Belə ki, aqlütinativ dillərdə olduğu kimi, Azərbaycan dilində də baş və budaq cümlələrin sintaktik kontaktında (bir-birinə yanaşmada) morfoloji vasitə - şəkilçilər mühüm rol oynayır. Şəkilçi sonluqların hər biri öz növbəsində müəyyən qrammatik vəzifə daşıdığından söz tərkibində şəkilçilərin yeri və cümlə tərkibində müvafiq morfoloji vasitələrin işləndiyi sözlərin yeri dəyişməz olaraq qalır. Bu səbəbdən sözün, tərkib hissələrin yerdəyişməsi ilə müşayiət olunacaq forma - quruluş dəyişikliyi reallaşa bilmir. İngilis dilində isə qrammatik mənalar, morfoloji vasitədən çox sintaktik vasitələrlə (sözlərin yanaşması yolu ilə, sözönləri ilə) ifadə edildiyindən və müvafiq morfemlər əhəmiyyətli rol oynamadığından cümlə bağları sına və mürəkkəb cümlə qütblərinin yerdəyişməsi baş verə bilər. İngilis dilində (digər flektiv dillərdə olduğu kimi) yalnız sintaktik əlaqəyə girmiş sözlər yerdəyişməyə məruz qala bilmir, sintaktik əlaqəyə girmiş belə cütlüklər birlikdə cümlənin müxtəlif qütblərinə doğru yerlərini dəyişir.

Bununla bərabər, ingilis dilində komponentləri yerlərini dəyişə bilməyən tabeli mürəkkəb cümlə formaları işlənir. Belə cümlələrdə baş cümlədən sonra gələn budaq cümlə komponenti adətən əvvələ keçmir. Səbəb odur ki, bəzi bağlayıcı vasitələr cümlə əvvəlində işlənmədiyindən həmin vasitələrlə - bağlayıcı və bağlayıcı sözlərlə başlayan budaq cümlə komponenti tabeli mürəkkəb cümlənin əvvəlinə doğru yerini dəyişə bilmir. Still, she never went to Cincinatti, where his family lived (7, s.110) (Hələ də o Cincinattiyə heç vaxt getmirdi, harada ki, onun ailəsi yaşayırdı). Təyin budaq cümləli tabeli mürəkkəb cümlənin budaq cümlə hissəsinin əvvəlindəki where bağlayıcı sözü baş cümlənin yer zərfliyinə (Cincinatti sözü) aid olub, onu təyin etdiyindən, sintaktik və məna əlaqə bağları sınmır, budaq cümlə hissəsi əvvələ keçə bilmir.

That bağlayıcısı ilə başlayan budaq cümlə komponenti baş cümlə ilə yerini dəyişə bilmir. All I know is that

young boys sleep late and hard (9, s.30) (Bütün bildiyim odur ki, cavanlar yaman gec və bərk yatırlar; xəbər budaq cümləli tabeli mürəkkəb cümlə). Baş cümləsi it is mübtəda və xəbərindən ibarət olan tabeli mürəkkəb cümlələrdə budaq cümlə əvvələ keçmir. It is what a man must do (9, s.34) (Bu, kişinin etməli olduğudur).

Budaq cümlənin baş cümlə içərisində yerləşdiyi quruluş da ənənəvi tabeli mürəkkəb cümlə şəklini ala bilər. Bu halda komponentlərin yerini dəyişmək mümkün olmasa da, budaq cümlə baş cümlə daxilindəki cümlə üzvü yerini yox, baş cümlədən kənarda budaq cümlə yerini tutur. There were his offices, where he could always be found, his clubs and the hotels (7, s.115) (Onun ofisləri, klubları, hotelləri vardı, harada ki, onu həmişə tapmaq olardı) tabeli mürəkkəb cümləsində təyin budaq cümləsi baş cümlədən kənarda işlədilə bilər: There were his offices, his clubs and the hotels where he could always be found. Bu cümlə vahidlərində isə bu cür tabeli mürəkkəb cümlə şəklini bərpa etmək olmur və cümlə quruluşu heç bir deformasiyaya uğramır: The door of the house where the boy lived was unlocked (9, s.34) (Evin qapısı, harada ki, oğlan yaşayırdı, açıq idi). Baş cümləni formal şəkildə bərpa etmək (The door of the house ...was unlocked) mümkün olsa da, budaq cümlə komponentini əvvəlki yerindən kənarda təsəvvür etmək olmur.

Ədəbiyyat:

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis:IV hissə. B:"Maarif", 1985
2. "Ədəbiyyat qəzeti", 30.12.2017, № 52(5123)
3. Иванова И.П., Бурлакова В.В., Почепцов Г.Г. Теоретическая грамматика современного английского языка. М.: "Высшая школа", 1981
4. Левицкий Ю.А. Теоретическая грамматика современного английского языка. Пермь: изд. Пермьского университета, 2004
5. Израилевич Е.Е., Качалова К.Н. Практическая грамматика английского языка. Москва: Внешторгиздат, 1952 (üm.səh.555)
6. Бархударов Л.С., Штелинг Д.А. Грамматика английского языка. Москва: «Высщая школа», 1973 (üm. 423)
7. Jennie Gerhardt, A novel by Theodore Dreiser author of "Sister Carrie". New York, Copyright, 1911, by Harper & Brothers
8. Allan Poe Edgar. Prose and Poetry. Moscow: Raduga Publishers, 1983
9. Hemingway Ernest, The old man and the sea. Moscow: Foreign languages publishing house, 1963

Açar sözlər: *yerdəyişmə, sintaktik asılılıq, kommunikativ məqsəd, sintaktik əlaqə, üslubi tələblər*

Ключевые слова: смещение, синтаксическая зависимость, коммуникативная цель, синтаксическое соотношение, стилистические требования

Key words: displacement, syntactic dependency, communicative purpose, syntactic relation, stylistic demands

Изменения местоположения компонентов в структуре сложноподчинённых предложений.

Резюме

Как в английском, так и в азербайджанском языке компоненты сложноподчинённых предложений с лёгкостью могут меняться местами (В азербайджанском языке исключения составляют некоторые виды смысловых связей: причина – результат, соединение, последовательно – временная перечисленная связь и др.) По мнению исследователей, в современном английском языке изменение местоположения компонентов сложного предложения является причиной перемены мест структурного единства составных частей предикативных центров (и синтаксически зависящих от них элементов) полностью (или же одной части). В сложноподчинённых сложных предложениях изменения местоположения компонентов в некоторых возможных случаях, в определённых предложениях, иногда не может реализоваться. Сложносочинённые предложения, как и сложноподчинённые предложения бывают как с изменением местоположения компонентов, так и без изменения местоположения компонентов.

Displacement of components in the complex sentence structure

Summary

Either in English or in Azerbaijani the components of the complex sentences (except from some types of semantical coordinations in Azerbaijani; causative-consecutive, copulative, successive-tense enumerative coordinations) can easily be displaced. As to the researchers, in Modern English the displacement of composite sentence components can cause to the displacement of the predicative centres (and the elements depending syntactically on them) and their structural identity wholly (or partly). The displacement of the components in the complex sentence sometimes can be possible, but in some sentences it can be impossible. The components of the compound sentences as well as those of the complex sentences can be displaced and non-displaced.

Rəyçi: filol.e.d. Y. Əliyev